# Dostoyevskaya Anna Qriqoryevnanın xatirələri



*əvvəli ötən sayda*

IV

Ertəsi gün mən səhər tezdən yuxudan oyandım və işə başladım. Elə də çox qeydim olmasa da mən daha aydın, daha gözəl yazmaq istədiyimdən bu, bir xeyli vaxt apardı. Mən tələssəm də, düz yarım saat gecikdim.

Mən çatanda Fyodor Mixayloviç həyəcan içində idi.



- Artıq düşünməyə başladım ki, - salamlaşıb dedi, - mənimlə işləmək sizin üçün çox ağır gəldi və daha gəlməyəcəksiniz. Mən də sizin ev ünvanınızı qeyd etmədiyimdən dünən yazdırdıqlarımı itirmək qorxusunu yaşadım.

- Gecikdiyimə görə məni bağışlayın, çox xəcalət çəkirəm, - dedim mən, - amma işdən imtina etmək fikrinə düşsəydim, əlbəttə ki, bu barədə sizə məlumat verərdim və yazdırdığınız orijinal mətni mütləq sizə çatdırardım.

- Mən bu romanı noyabrın birinəcən bitirməliyəm, - Fyodor Mixayloviç izah etdi, - mənsə hələ heç romanın planını belə tutmamışam. Ona görə çox narahatam. Bircə bunu bilirəm ki, Stellovski nəşriylə 7 vərəqdən az olmamalıdır.

Mən bu barədə ondan bəzi xırdalıqları soruşdum. Fyodor Mixayloviç də mənə düşdüyü tələ haqqında danışdı.

Böyük qardaşı Mixayılın ölümündən sonra Fyodor Mixayloviç qardaşının buraxdığı "Vremya" jurnalı üzərində olan bütün borclarını öz üzərinə götürüb. Borclar vekselllə idi və kreditorlar Fyodor Mixayloviçi çox incidib narahat edirdilər. Onu mülkiyyətini müsadirə, özünü isə həbs edirəcəkləriylə hədələyirdilər. Və həmin zamanlar bunu etmək mümkün idi.

Ödənilməsi təcili olan borclar üç minə yaxın idi. Fyodor Mixayloviç hər yerdən pul axtarsa da, bunun bir nəticəsi olmamışdı. Kreditorları dilə tutmaq mümkünsüz olduğu və Fyodor Mixayloviçin çox çarəsiz bir vəziyyətə düşdüyü vaxtda F.T.Stellovski ona əsərlərinin üç cildə tam toplusunun çap etmək haqqını üç minə satın almaq təklifini edib. Bundan başqa, Fyodor Mixayloviç bu məbləğin içində həm də yeni roman da yazmalıydı.

Fyodor Mixayloviçin vəziyyəti kritik həddə çatmışdı. O, azadlığını itirməməkdən ötrü istənilən şərtlərlə müqaviləyə qol çəkməyə hazır idi.

Müqavilə 1865-ci ildə bağlanılıb və Stellkovski notariusda şərtləşdikləri məbləği təqdim edib. Bu pullar elə səhəri gün kredotorlara ödənilib. Və beləliklə də, Fyodor Mixayloviçə bir qara qəpik də pul qalmayıb. Ən pisi isə o idi ki, bir neçə gündən sonra həmin pullar yenidən Stellovskiyə qayıtmışdı. Sən demə, o, Fyodor Mixayloviçin veksellərini dəyər-dəyməzinə almış, sonra da özü tutduğu iki nəfərin köməyilə ondan pul çıxarmağa çalışmışdı. Stellovski bizim ədəbiyyatçı və musiqiçilərimizi (Pisemski, Krestovski, Qlinka) çox hiyləgər və bacarıqlı şəkildə istismar edib. O, insanları çətin vəziyyətdə yaxalayıb öz toruna salmağı əla bacarırdı. Dostoyevskinin romanlarının uğuru ilə müqayisədə üç min çox aşağı bir qiymət idi. Şərtlərdən ən ağırı isə yeni romanının 1 noyabr 1866-cı ilə qədər hazır olunması şərti idi. Əgər Fyodor Mixayloviç dediyi vaxta romanı təhvil verməsəydi, böyük bir məbləğdə cərimə ödəməli olacaqdı; noyabr ayının 1-də roman hazır olmasaydı o, əsərlərinin müəllif haqqını itirəcəkdi. Bütün haqlar həmişəlik Stellovskiyə keçəcəkdi. Şübhəsiz ki, o "yırtıcı" elə bunu gözləyirdi.

Fyodor Mixayloviç 1866-cı ildə bütün vaxtını "Cinayət və cəza" romanına sərf edir, onunla məşğul olurdu. Və onu bədii şəkildə bitirməyə çalışırdı. Bu cür xəstə adam yeni bir romanı necə

Payızda Moskvadan geri dönən Fyodor Mixayloviç ay yarım-iki ayın içində Stellovskiylə bağladığı müqavilənin şərtinə əməl etməyin mümkünsüzlüyünü düşünüb ümidsizliyə qapılırdı. Fyodor Mixayloviçin dostları - A.N.Maykov, A.P.Milyukov, İ.Q.Dolqomostyev və başqaları onu bu bəladan qurtulmağa kömək etmək məqsədilə romanın planını tutmağı təklif edirdilər. Onlardan hər biri müəyyən hissəni öz üzərinə götürməklə, birlikdə romanı vaxtında bitirmək istəyirdilər. Fyodor Mixayloviçə bircə işin sonunda romanı redaktə etmək və bir də belə hallarda qaçılması mümkün olmayan nöqsanları aradan qaldırmaq qalacaqdı. Fyodor Mixayloviç bu təklifdən imtina etdi: o, başqasının əsərinin altından öz imzasını qoymaqdansa, cərimə ödəmək, ya da ki müəllif hüquqlarını itirməyi daha üstün tuturdu. (Bu barədə A.P.Milyukov xatirələrində qeyd edir ("İstoriçeskiy vestnik" jurnalı, 1881) Belə olduğu halda dostları Fyodor Mixayloviçə kömək üçün stenoqrafa müraciət etməyi məsləhət görürlər.

A.P.Milyukov stenoqrafiya müəllimi P.M.Olxini xatırladı. Və onun yanına gedərək Fyodor Mixayloviçin yanına getməsinə xahiş etdi. Fyodor Mixayloviç stenoqafçının ona bu işdə kömək edəcəyinə şübhəylə yanaşa da, vaxtın daraldığını nəzərə alıb bu xidmətdən istifadə etməyə razılıq verdi.

O vaxt insanları az tanısam da, Stellovskinin hərəkətləri mənə olduqca əsəbiləşdirmişdi.

Bizə çay gətirdilər və Fyodor Mixayloviç romanı diktə etməyə başladı. Görünür, ona belə işləmək asan deyildi. Ona görə də tez-tez işi dayandırır, düşünür, yazdırdığını oxumağımı xahiş edirdi. Bir saat belə işləyəndən sonra isə artıq yorulduğunu və bir az dincəlmək istədiyini bildirdi. Söhbət elə dünənki kimi başladı. Fyodor Mixayloviç çox gərgin və həyəcanlı idi. Tez-tez bu süjetdən o biri süjetə keçirdi. Yenə də adımı soruşdu və bir dəqiqə keçməmiş unutdu. Çəkmədiyimi desəm də, iki dəfə mənə papiros təklif etdi.

Mən ondan yazıçılarımız haqqında bir neçə sual verdim. Və o dərhal canlandı. Suallarıma cavab verə-verə, elə bil ki, fikirlərindən ayrıldı, bir az sakit, hətta da sevincli danışmağa başladı. O vaxt danışdıqlarından bir az yadımda qalıb:

Fyodor Mixayloviç Nekrasovu gənclik dostu hesab edir, poetik istedadını isə çox yüksək qiymətləndirirdi. Maykovu təkcə istedadlı şair kimi yox, həm də ağıllı və çox gözəl bir insan kimi sevirdi. Turgenyev haqqında birinci dərəcəli istedad kimi danışırdı. Bircə uzun müddət xaricdə yaşadığından Rusiyanı və rus xalqını daha az anlamasına görə heyifsilənirdi.

Qısa fasilədən sonra biz yenidən işə başladıq. Fyodor Mixayloviç yenidən gərginləşməyə və həyəcanlanmağa başladı. Görünür, işi ürəyincə alınmırdı. Bunu özümə əsərini yaxşı tanımadığı bir adama diktə etməklə izah edirdim.

Saat dörddə mən getməyə hazırlaşdım və yazını hazır şəkildə sabah saat on ikidə gətirəcəyimi bildirdim. Sağollaşanda Fyodor Mixayloviç mənə özünün istifadə etdiyi, xətləri güclə sezilən bir dəst kağız verdi. Məhz hardan kənar xətt çəkmək lazım olduğunu da göstərdi.

V

Bizim işimiz bu cür başladı və elə bu cür də davam etdi. Mən Fyodor Mixayloviçin evinə saat on ikidə gəlirdim, dörddə çıxıb gedirdim. Bu müddət ərzində biz üç dəfə yarım saat olmaqla yazır, onlar arasındakı fasilələrdə isə söhbət edir, çay içirdik. Fyodor Mixayloviçin yeni iş prinsipinə alışması məni sevindirirdi və hər dəfə gəlib-gedəndən sonra onun daha çox sakitləşdiyini hiss edirdim. Onun get-gedə daha da sakitləşdiyini yazdığım vərəqlərin sayının neçəsinin Stellovski nəşrinin bir vərəqinə bərabər olduğunu biləndən sonra hiss etdim. Səhifə saylarının artması Fyodor Mixayloviçi daha da gümrahlandırır və sevindirirdi. O məndən tez-tez sorşurdu: "Bəs dünən neçə vərəq yazmısız? Ümumi neçə səhifəmiz hazırdı? Necə düşünürsüz, vaxtında bitirə bilərik?"

Dostyana söhbətlərimizdə Fyodor Dostoyevski hər dəfə mənə taleyinin hansısa bir kədərli səhifəsini açırdı. Düşdüyü və deyəsən, heç vaxt çıxa bilmədiyi ağır hadisələrdən danışanda ona ürəyim ağrıyırdı, yazığım gəlirdi.

Əvvəl-əvvəl ailəsindən heç kimi görmədiyim üçün təəccüblənirdim. Ailə üzv-



lərini tanımırdım və indi harda olduqlarını da bilmirdim. Ancaq onlardan birini, deyəsən, o evə dördüncü səfərimdə görmüşdüm. İşimi bitirib çıxanda evin qapısında məni gənc bir oğlan saxladı. Onu elə bil ki, Fyodor Mixayloviçgilə birinci dəfə gələndə görmüşdüm. Yaxından o mənə uzaqdan göründüyündən daha çirkin göründü. Üzü qarabuğdayı, ağ ləkələrlə qara gözləri və tütündən saralmış dişləri vardı.

- Siz məni tanıdınızmı? - bu gənc adam məndən soruşdu. - Mən sizi atamın yanında görmüşəm. Sizin məşğul olduğunuz zaman mən də otağa gəlmək, stenoqrafiyanın nə olduğunu bilmək istəyirəm. Çünki mən özüm də bu işi öyrənmək niyyətindəyəm. İcazə verin. - O, çox ədəbsiz şəkildə əlimdən portfelimi alaraq elə küçənin ortasındaca stenoqrammaya baxmağa başladı. Mən bu ədəbsizlikdən özümü necə itirmişdimsə, etiraz belə eləməyi unutdum.

- Əyləncəli işdi, - yöndəmsiz şəkildə portfelimi geri qaytardı. "Fyodor Mixayloviç kimi mehriban və xeyirxah insanın, doğrudanmı, belə tərbiyəsiz oğlu var?" - düşündüm.

**Ardı gələn sayımızda**

**Rus dilindən tərcümə edən:**
**Xanım Aydın**